**“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı” (Dövlət Proqramı) çərçivəsində xaricdə bakalavr, magistratura və doktorantura üzrə təhsili maliyyələşdirilmiş tələbələrin ölkələr, təhsilinin prioritet sahələri və xərc istiqamətləri üzrə maliyyələşdirilmiş vəsaitlərə dair 31.03.2026-ci il tarixinə olan məlumat**

31.03.2026-ci il tarixinə Dövlət Proqramı çərçivəsində ümumilikdə 1630 nəfər tələbənin təhsili ilə bağlı xərcləri Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilmişdir. Bu tələbələrin 1243 nəfəri magistratura, 371 nəfəri bakalavr və 16 nəfəri doktorantura pilləsində təhsil alır. Eyni zamanda, tələbələrin 22%-i, yəni 359 nəfəri dünyanın ən nüfuzlü 10 ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanmışdır.



**Bakalavr tələbələrinin ölkələr üzrə sayı**




**Magistratura tələbələrinin ölkələr üzrə sayı**



**Doktorantura tələbələrinin ölkələr üzrə sayı**

Doktorantura tələbələrindən 13 nəfəri Birləşmiş Krallıq, 1 nəfəri Avstraliya, 1 nəfəri Türkiyə, 1 nəfəri isə İsveçrədə təhsil alırlar.

**Tələbələrin təhsilinin prioritet sahələri üzrə bölgüsü**




Xarici ölkələrin universitetlərində təhsil alan tələbələrin əksər hissəsi İnformasiya texnologiyaları (349 nəfər), Mühəndislik (219 nəfər), Maliyyə (194 nəfər) və İqtisadiyyat (155 nəfər) ixtisasları sahələrində təhsil alırlar. Bu 4 prioritet ixtisas sahəsində təhsil alan tələbələr ümumi proqram iştirakçılarının 56.3%-ini təşkil edir.

**Dövlət Proqramı çərçivəsində xərc istiqamətləri üzrə istifadə olunmuş vəsaitin bölgüsü**




2022–2028-ci illər üçün Dövlət Proqramı Azərbaycan gənclərinin yüksək keyfiyyətli təhsil almalarına şərait yaradaraq, ölkənin intellektual potensialının artırılmasına və müxtəlif sahələrdə peşəkar kadrların yetişdirilməsinə əhəmiyyətli töhfə verir. Hal-hazırda 516 nəfər tələbə təhsilini müvəffəqiyyətlə başa vurub məzun adını qazanmışdır.

